

# MEŞƏBƏYİ

**Yumoristik hekayə**


*Nemət Bəxtiyar,*
*Azərbaycan Jurnalistlər birliyinin üzvü,*
*Media "Qızıl Qələm" mükafatı laureatı.*


Bəyoğlan atasının,babasının yolunu secmşdi.O da rayon Meşə təsərrüfatı idarəsində meşəbəyi vəzifəsndə beş kəndin inzibati ərazisinə nəzarət edir, həm də təbiəti çox sevirdi,

Onu gözbəbəyi kimi qoruyurdu.Bir adamın hünəri nə idi ki,əlində dəhrə,balta meşəyə girəydi.

Onu axıra qədər güdüb, nə üçün meşəyə gəldiyini öyrənməsəydi həmin gün rahatlıq tapmazdı.Heç gecəni də rahat yata bilməzdi.-Kimin nə haqqı vardı ki,meşədən bir ağacı kəsəydi,onu da hələ bir çiyninə alıb meşədən çıxaydı.Ancaq yanına gedib desəydi ki;

Meşənin bəyi Bəyoğlan bəy,icazə verin bu gün meşəyə gedim,özü də söz verirəm ki, ancaq quru odun kəsəcəyəm.Bir ulaq yükü oduna ehtiyacım var. ? Əlini də sal cibinə.Allahtala xeyr versin denən,vəssalam,şüttamam...

Sonra da meşəni tala,qır-çat. Mərdi-mərdanə idi.Xeyrə,şərə təmannasız bir maşın odun verərdi. Elə bil dədəsinin meşəsi idi.

Axşam toya gələrdi,toy mağarına girib doyunca yeyib içərdi.Aşıqlar da onun havasını -"Meşəbəyi" havasını çalardılar.Yorulunca oynayıb sonra ortadan çıxardı.Bəzən də uşaqlar qoluna girib evinə qədər də aparardılar...

Ayda hər evdən "bir rubl","tüstü pulu" yığardı.Hansı ailədə ailə başçısı dünyasını dəyişmişdirsə ondan heç vaxt "tüstü pulu" almazdı.O ailə Bəyoğlanın güzəştli ailələr siyahısında idi.Özünün həyət-bacasında nə desən var idi. Böyük həyətin də arı pətəkləri cərgə ilə düzülmüşdü. Hələ mal-qara,qoyun-keçi,qoşa-qoşa at,ulaq da saxlayardı.

Hər səhər tezdən köhlən atını minib bütün meşəni gəzərdi.Gecələr də rahat,şirin yuxu yatmazdı.Dəfələrlə gecə maşın işığında "odoun oğrularını",brokonerləri iş başında yaxalamışdır.Hətta bir dəfə rayon milis idarəsinin , özü də milis formasında, adamları yolun kənarında bitmiş palıd ağaclarını balta ilə kəsib-doğrayan zaman meşəbəyi Bəyoğlan tərəfindən yaxalanmışdılar."Bu barədə meşəbəyi Bəyoğlan tərəfindən akt tərtib edilmiş,rayon meşə idarəsinə hadisə haqqında məlumat da verilmişdir...

Bu hadisədən sonra rayon milis idarəsinin rəisi Həsənov Bəyoğlanın müdirinə zəng vurmuşdu

-Bərxudarov sizi eşidir ,yoldaş Həsənov.

-Əəə,Bərxudarov sənin meşəbəyin qudurub deyəsən mənim uşaqlarıma ilişir. .Başı ətdənib deyəsən.Sənin o meşəbəyin var haa,Bəyoğladır,nökəroğlandır bilmirəm,sroçnu onu işdən qovarsan...

Bərxudarov təcili Bəyoğlanı yanına çağırtdırdı və:"İşində buraxdığı ciddi nöqsanlara görə, şəxsi işinə yazılmaq şərti ilə şiddətli töhmət verilsin" əmri elan etdi...Və sonra Bəyoğlana dedi:

Ə,sən yaxşı işçisən,əlim gəlmir sənə töhmət verəm.Get işlərinlə məşğul ol.Kişinin sözünü yerə sala bilmədim.O Qozlu çayı var ha-,onun üstündə də bir "Turşsu" bulağı var ha,-bir quzu apar onun üstünə.Rəis Həsənovu da götürüb gələrəm,naharı orada bulaq başında qeyd edərik.

Bir dəfə də Ənvər dayı oğlunu yanına alıb meşəyə getdi. Bəyoğlan gözə dəymirdi. Arxayıncasına meşədə quru ağaclardan kəsib ulağa yük hazırladı və ulağı qabağına qatdı ki,tez evə aparsın,meşəbəyi görməsin.

Ay bala,tez sür,aradan çıx,apar evdə yükü boşalt,yenə qayıt ? dedi Ənvər dayı.

İkinci dəfə meşəbəyi Bəyoğlan onları haqladı və soruşdu:

A bala,bir ayaq saxla görüm kimlərdənsən,kimin oğlusan? ? dedi.

Ənvər kişinin oğluyam.

Ə sənin dədən Ənvərin mənə borcu var,"tüstü pulu"nu iki aydı verməyib,indi yaxşı əlimə düşdün.Ona göstərərəm ? dedi və atdan yerə düşdü.Tez ulağın yükünün ipini açmağa başladı.Uşaq nə qədər yalvardısa da o,inadından dönmədiki dönmədi, odun yükünü açıb yerə tökdü.

Onun adəti idi odun aparan adamın baltasını, ya da ipini əlindən alıb sübut,əşyayi-dəlil kimiə götürərdi.Ona görə də Bəyoğlanın evində baltadan,dəhrədən,ipdən yer yox idi.

Uşaq ağlaya - ağlaya ulağı qabağına qatıb evə tərəf getməyə başladı,dodaq altı nə isə mızıldanırdı.

Yaxşı Bəyoğlan dayı,bir gün gələr bu "qisası" səndən alaram ? dedi.

İsti yay günlərinin biri idi.Kənd sakinlərinin başı ot tədarükünə qarışmışdı.Hər kəs qışda heyvanlarını yemləmək üçün bol yem tədarükü görürdü.Meşəbəyi Bəyoğlan da əlində dəryaz ot çalırdı.Hər dəfə talanın obaşına gedib-gəlincə xeyli vaxt çəkirdi.Köməyə çağırdığı adamlar hələ də gəlməmişdilər. Başı ot çalmağa bərk qarışmışdı.

Ənvər kişinin oğlu haradansa gəlirdi.Yolu talanın yanından düşdü.Birdən meşəbəyi Bəyoğlanın əziyyətlə,qan-tər tökdüyünü gördü-.Ağacın gövdəsində oturub ona tamaşa etməyə başladı.Ürəyindən keçirdi ki,bəlkə gedim bulaqdan sərin su gətirim verim içsin,ürəyi sərinləsin. Ətrafa göz gəzdirdi.Baxıb gördü ki,talanın o başında ağacın gövdəsində bir pencək asılıb.Fikirləşdi ki,yəqin meşəbəyi Bəyoğlanındı .Bəyoğlanın başı işə qarışmışdı.Əlindəki dəryazı qolları boyda açıb-yığırdı ki,biçilmiş ot layı böyük düşsün,bəlkə sahəni tez biçib başa çatdırsın.

Ənvər dayının oğluehtiyatla ağacdan asılmış pencəyə yaxınlaşdı.Əlini qoltuq cibinə saldı,əli bükülü kağıza dəydı.O,tez də əlini çölə çıxardı.Tələsik olduğu üçün üç "rubl" də əlində gəldi.Oğlan gördüyü işdən peşiman oldu,utandı da .Ətrafa göz gəzdirdi. Adamlar sərinləmək üçün ağacların kölgəsində dincəlir,meşəbəyi Bəyoğlan isə ot çalmağında davam edirdi.

Oğlan yenə nə isə fikirləşdi,birdən çörək bağlamasını da götürdü və üç "rubl"u da cibinə basıb oradan uzaqlaşıb "Turşsu" bulağına gəldi. Süfrə açdı,təndir çörəyini,balı,yağı,pendiri,soyulmuş yumurtanı,hələ qaymağı da görüb gülümsədi.O,rahat çörək yeməyə başladı.Nahara xeyli qalmışdı.Doyunca yedikdən sonra, doyunca da su içdi. Oğlan yeməklərin yerdə qalanlarını səliqə ilə bağlamaya yığıb bulağın üstündəki ağcdan asdı və cay aşağı getdi ki,birdən yolda kimsə qarşısına çıxa bilərdi.

Kənddə Şeytan təpəsi adlanan yer vardı.-Kimin nə dərdi vardısa orada müzakirə olunardı.Axçam tərəfi idi,meşəbəyi Bəyoğlan isə atın belində hay-küy salmışdı,meydan sulayırdı,asıb-kəsirdi.

Ə,naharımı yemisən halal xoşun olsun,kişilik edib qalanını da ağacdan asmısan ona görə də sağ ol.Məni üç manat yandırır ? deyə Bəyoğlan atı o tərəf-bu tərəfə oynadırdı.

Vəliş dayı da and-aman edirdi. Bəyoğlan isə qışqırdı:

Sən həmin gün oradan keçmisən.Bəs onda bunları kim aparıbdı?Bəlkə başqa bir adamın oradan keçdiyini görmüsən?Onu mənə de.

Vəliş kişi qəzəbindən bilmirdi ki,nə etsin-.Oğlu səs-küyə özünü çatdırıb cibindən bir üçlük çıxarıb Bəyoğlana uzatdı və dedi:

Ə,yekə kişi bayaqdan and-aman edir.Sən nə kafir adamsan əəə.Al bunu kişidən əl çək-.O pulu görən kimi səsini kəsdi,pulu havada qarpıb cibinə qoydu və ata bir qamçı vurub uzaqlaqşdı.

Aradan xeyli vaxt keçmişdi.Meşəbəyi Bəyoğlan yenə meşədə at oynadırdı.Uzaqdan atlının ayaq səsləri get-gedə yaxınlaşırdı.Ənvər dayının oğlu yenə meşədən uiaqla odun aparırdı. Bəyoğlan atın üstündə yolun tən ortasında dayanmışdı.Odun yüklü ulaq ona çatanda dayandı.O,yükü nəzərdən keçirdikdən sonra uşağın üzünə baxdı.Nə isə yadına düşmüş kimi fikirləşdi və birdən qayıtdı ki:

Ə,sən kimin oğlusan?Mənə tanış gəlirsən.

Ənvər kişinin oğluyam.

Həə,dədən necədi?O yaxşı kişidir.Məndən ona çoxlu salam deyərsən.

Baş üstə Bəyoğlan dayı.Sən nə təhərsən? Salamlarını çatdıraram.Tüstü pulu borcunu verdi?Ta borcumuz yoxdur ki?

Yox bala yoxdur.A bala o bizim öz işimizdi.Sən uşaqsan elə işlərə qarışma.Ta bu səfər sənə dəymirəm,get.

Oğlan gülümsədi.Bəyoğlan şübhəli-şübhəli onu süzdü :

Ə,nəyə gülürsən? Özünü bayaqdan şübhəli aparırsan ? deyə meşəbəyi qəzəbləndi.

Bəyoğlan dayı eşitdim ki,nahar bağlamanı oğurlayıblar,özüdə aparıb bulağın başında yeyiblər.Hələ cibindən də üç manat pulunu da götürüblər.Sən də o xəstə Vəliş kişinin yaxasından tutmusan.

Ə,bic-bic nə gülümsəyirsən, bəlkə pulu sən aparmısan?

Ənvər dayının oğlu daha da ürkdən güldü:

Bəyoğlan dayı,yəqin kiminsə səndən heyif çıxıbdı ...

...

Ədalət.- 2016.- 28-29 iyul.- S. 4.